# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Basqal (tarixi -etnoqrafik tədqiqat)**
Qrantın məbləği: **35 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Babayev Tofiq Ağababa oğlu**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/38/5-M-08**
Müqavilənin imzalanma tarixi: **19 yanvar 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 fevral 2015-ci il – 01 avqust 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)* Layihənin həyata keçirildiyi 01 vefral 2015-01 avqust 2016-ci il müddətində plan üzrə nəzərdə tutulmuş işlər müvəfəqiyyətlə başa çatdırılmışdır. Yazılması nəzərdə tutulan “Basqal (tarixi-etnoqrafik tədqiqat)” adlı monoqrafiya çap olunmaq üçün hazırlanmışdır. Monoqrafiya yazılarkən mövcud mənbələr, arxiv materialları, elmi-tədqiqat əsərləri ciddi şəkildə araşdırılmış, əldə edilmiş məlumatlar çöl-etnoqrafik materialları ilə qarşılıqlı müqayisəli təhlilə cəlb edilmiş, müəyyən elmi nəticələrə gəlinmişdir ki, həmin nəticələr də monoqrafiyada öz əksini tapmışdır.<br>Tədqiqat işləri aparılarkən müasir etnoqrafiya elmində tətbiq edilən müqayisəli-təhlil metodundan istifadə edilmişdir. Bu metod məlumatın doğruluğunun dərəcəsini müəyyənləşdirməyə imkan verir. |

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə nəzərdə tutulmuş işlər yüz faiz (100 %) yerinə yetirilmişdir. Müxtəlif elmi nəşrlərdə 5 məqalə çap olunmuş və layihədə nəzərdə tutulmuş "Basqal (tarixi-etnoqrafik tədqiqat)" monoqrafiyası vaxtında və yüksək elmi səviyyədə yazılıb başa çatdırılmışdır. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>"Basqal (tarixi etnoqrafik tədqiqat)" adlı monoqrafiyası üzrə tədqiqat işləri aparılarkən bir sıra maraqlı elmi nəticələr əldə edilmişdir. Həmin nəticələrdən məlum olur ki,<br>1) Basqal tarixən Azərbaycan ən iri ipəkçilik mərkəzlərindən biri olmaqla, xarici iqtisadi əlaqələrdə və beynəlxalq ticarətdə mühüm rol oynamışdır. Bu barədə həm arxiv sənədlərində, həm azərbaycanda olmuş xarici səyyahların yol qeydlərində, həm də elmi əəbiyyatda kifayət qədər məlumatlar əksini tapmışdır. Lakin araşdırmalarımız zamanı onu da müəyyənləşdirdik ki, Basqalda təkcə ipəkçilik və ya kəlağayıçılıq sənətkarlığı deyil, bir sıra başqa sənət və peşə sahələri də mövcud olmuş və onlar ipəkçilik qədər olmasa da, əhalinin gündəlik məişət, ev və təsərrüfat ehtiyaclarını ödəmək gücündə olmuşdur. Həmin sənət cahələri arasında ağac və daşişləmə, dulusçuluq, dəmirçilik, həmçinin kömürbasmanı xüsusi qeyd etmək lazım gəlir. Bu məsələlər ilk dəfə olaraq təqdim etdiyimiz monoqrafiyada əz əksini tapmışdır.<br>2) Basqal qəsəbəsi Azərbaycan tarixinin, etnoqrafiyasının, folklorunun, mədəniyyət və incəsənətinin elmi araşdırılması üçün zəngin materiallara malik unikal bir yaşayış məskənidir. Gələcəkdə burada arxeoloji qazıntıların aparılması Basqalı qədim və orta əsrlər dövrünün əlamətlərini özündə əks etdirən kompleks arxeoloji park kimi də əhəmiyyətini artıra bilər. Yerüstü maddi-mədəniyyət nümunələri, həmçinin ərazidə aparılmış kəşfiyyat xarakterli tədqiqatların nəticələri də bunu deməyə əsas verir. Bundan başqa, Basqalın təbii-coğrafi göstəriciləri, tarixi memarlıq quruluşu, sənətkərlıq ənənələri buranın etnoqrafik model-kənd kimi formalaşmasını da perspektivdə mümkün edir.<br>3) Apadığımız elmi tədqiqatlardan aldə olunan elmi nəticələrdən biri də ondan ibarətdir ki, Basqalın orta əsr şəhərləri üçün xarakterik olan infrastruktura malik olması, ilk növbədə kürəbənd su və kanalizasiya şəbəkəsinin mövcudluğu, buranın lap qədim dövrlərdən ölkəmizin ən iri sənətkarlıq mərkəzlərindən biri olduğunu bir daha təsdiqləyir. Çünki bu cür su və kanalizasiya şəbəkələri keçmişdə adətən, müxtəlif sənət istehsalı sahələrinin, o cümlədən ipək istehsalı üzrə ixtisaslaşmış müəssisələrin su ilə təmin edilməsi və çirkli suların axıdılması üçün ilk növbədə iri sənətkarlıq mərkəzlərində inşa edilirdi.<br>4) Basqalın tarixən Şirvanşahlar dövləti hökmdarlarının gəzinti və istirahət yeri olması faktı, buranın təkcə iqtisadi baxımdan deyil, mədəni və mənəvi, o cümlədən ekoloji-sağlamlıq baxımından da mühüm məntəqələrdən olduğunu da ortaya qoyur. Çünki buranın təbii-coğrafi göstəriciləri, o cümlədən ekoloji durumu sağlamlıq və istirahət üçün vacib hesab olunan tələblərə tam cavab verir. Bunları nəzərə alıb müəyyən infrastruktur layihələri həyata keçirməklə, Basqalı iri, gəlir gətirə bilən bir turizm məkanına, istirahət guşəsinə çevirmək olar. Bu, qəsəbə əhalisinin bəzi sosial problemlərinin də müəyyən dərəcədə həll edilməsinə kömək edəcəkdir. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər |

| | |
|---|---|
| | və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)* 1. Basqalda ənənəvi ipəkçiliyin bəzi məsələlərinə dair //Azərbaycan MEA-nın xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 2015, №2. s. 157-170<br>2. Basqalda bəzi ənənəvi sənətkarlıq sahələri haqqında //Azərbaycan MEA-nın xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 2015, № 3. s. 160-169<br>3. Kəlağayı sənətkarlığının tarixi və etnoqrafik xüsusiyyətləri haqqında (Basqal materialları əsasında) //Tarix və onun problemləri. № 1, Bakı, 2016. S. 249-257<br>4. Basqal: arxeoloji və tarixi-etnoqrafik xarakteristika //Sivilizasiya (elmi-nəzəri jurnal). № 1. 2016. s. 158-166<br>5. Basqal: tarix, mədəniyyət və müasirlik //Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). № 2 (98), 2016. s. 301-309 |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Layihə həyata keçirilərkən İsmayıllı rayonuna və Basqal qəsəbəsinə mütəmadi olaraq elmi ezamiyyətlər həyata keçirilmişdir. Belə ki, müxtəlif problemlərin araşdırılması zamanı, İsmayıllı Tarix-diyarşünaslıq Muzeyindəki etnoqrafik materillarla tanışlıq baş tutmuş, rayon qəzetinin redaksiyasında aparılan araşdırmaların nəticəsi olaraq əldə edilən məlumatlar monoqrafiyaya cəlb edilmişdir. Bundan başqa, çöl-etnoqrafik materialları toplamaq üçün Basqal qəsəbəsinə həyata keçirilən etnoqrafik səfərlər zamanı qəsəbə rəhbərliyinin, həmçinin "Basqal tarix və mədəniyyət qoruğu"nun köməyi ilə basqallı yaşlı sakinlər, ziyalılar və s.-lə görüşlər keçirilmiş, informasiyalar alınmış, Basqalın memarlıq quruluşu. Tarixi abidələri, mənəvi mədəniyyət məsələləri və monoqrafiyanın ruhuna uyğun olaraq digər mövzulara aid foto-çəkilişlər həyata keçirilmişdir. Bundan başqa, Basqalın turizm imkanları ilə tanış olmaq üçün, Basqal ətrafındakı ərazilərə və kəndlərə də səfərlər edilmiş və bu məsələlərlə bağlı müvafiq təkliflər hazırlanmışdır. Həmin təkliflər monoqrafiyanın "Nəticə" hissəsində əksini tapmışdır. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)* |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |

| | |
|---|---|
| | *(burada doldurmalı):*<br>Layihə həyata keçirilən müddətdə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən aşağıdakı cihaz, avadanlıq və qurğular alınmışdır:<br>2 ədəd "AGER" markalı nootbuk,<br>1 ədəd printer,<br>2 ədəd "TOSHİBA" markalı elektron disk – flaş,<br>1 ədəd fotoaparat Canon EOS 60 D (18-55) (videoçəkilişi ilə),<br>1 ədəd S/N: 4460BO25 (AB),<br>1 ədəd diktofon rəqəmsal SONY İCD-UX533FSC 8 gb S/N: P-25220851-7 alınmışdır. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Müəyyən məsələlərin araşdırılması zamanı suallar ortaya çıxdıqda, bölgə üzrə, o cümlədən, həm Basqalın yerli sakinləri, həm də bu tarixi diyarda ayrı-ayrı elm sahələri üzrə elmi araşdırmalar aparan tarixçilər, arxeoloqlar, folklorçular, memarlar və digər elm sahələri üzrə fəaliyyət göstərən həmkarlarla əlaqə saxlanılmışdır. Bu cür görüşlər və elmi əlaqələr müxtəlif problemlər üzrə ortaya çıxan məsələlərin dəqiqləşdirilməsinə, müəyyən nəticələrin əldə edilməsinə imkan vermişdir. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)*<br>Mövzu üzrə araşdırmalar aparılarkən Basqala aid materilallarla tanış olmaq məqsədilə, ölkəmizin bir sıra muzeylərində toplanmış, Basqala və bütövlükdə bu bölgəyə aid olan eksponatlara baxış keçirilmiş, müvafiq məlumatlar toplanmışdır. Bu baxımdan AMEA Milli Azərbaycan tarixi Muzeyində apardığımız araşdırmalar daha böyük əhəmiyyət kəsb edir. Belə ki, burada tədqiqat öbyektinə aid, əsasən XIX və XX əsrin əvvəllərinə aid çoxlu sayda eksponatlar, sənətkarlıq məhsulları, xüsusilə də kəlağayı nümunələri diqqəti daha çox cəlb edir. |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:** **İCRAÇI:**

**Elmin İnkişafı Fondu**

**Müşavir**

Babayeva Ədilə Əli qızı

______________

*(imza)*

"05" ___09___ 201_-cü il

**Layihə rəhbəri**

Babayev Tofiq Ağababa oğlu

______________

*(imza)*

"__" ________ 201_-cü il

**Baş məsləhətçi**

Qurbanova Səmirə Yaşar qızı

______________

*(imza)*

"05" ___09___ 201_-cü il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Basqal (tarixi -etnoqrafik tədqiqat)**
Qrantın məbləği: **35 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Babayev Tofiq Ağababa oğlu**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/38/5-M-08**
Müqavilənin imzalanma tarixi: **19 yanvar 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 fevral 2015-ci il – 01 avqust 2016-cı il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)* Müasir İsmayıllı rayonunun ərazisində - Baş Qafqaz dağlarının cənubundakı Niyaldağ silsiləsinin ətəyində qərarlaşmış Basqal tarixən Azərbaycanın ən qədim yaşayış və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Bu diyar və haqqında müxtəlif dövrlərdəmüxtəlif əsərlərdə müəyyən məlumatlar verilsə də, "Basqal (tarixi-etnoqrafik tədqiqat)" monoqrafiyası bu qədim diyara, onun tarixinə və etnoqrafiyasına həsr olunmuş ilk ümumiləşdirici əsərdir. Mənbə, ədəbiyyat və Basqalın ağsaqqal-ağbirçəklərindən, tanınmmış ziyalılarından, müxtəlif sənət-peşə adamlarından toplanmış məlumatlara, etnoqrafik materiallara əsaslanaraq yazılan əsərdə İsmayıllı rayonunun, o cümlədən Basqalın maddi və mənəvi mədəniyyəti, sənətkarlıq ənənələri, ailə və ictimai məişət məsələləri və bir sıra digər problemlər araşdırmaya cəlb olunmuşdur. Bu sahələr üzrə Basqalda il yarım ərzində aparılan |

etnoqrafik araşdırmalar bir sıra elmi nəticələrə gəlməyə imkan verir ki, həmin nəticələr də gələcəkdə elmi-nəzəri əhəmiyyəti ilə bərabər təcrübü əhəmiyyət də kəsb edə bilər. Onlar aşağıdakılardır:

1) Basqal Azərbaycanın tarixi yaşayış məskənlərindən biri olmaqla ümumazərbaycan tarixinin, etnoqrafiyasının və mədəniyyətinin inkişafında mühüm rola malik olmuşdur. Burada tariximizin və mədəniyyətimizin unikal nümunələri toplanmışdır. Bu sırada xalq sənətkarlığının nadir nümunələri olan kəlağayı örnəkləri ilə bərabər, digər sənətkarlıq və maddi-mədəniyyət nümunələrini – dənirçilik, dulusçuluq, dabbaqlıq, ağac və daşişləmə, həmçinin ənənəvi yaşayış evlərini, tarixi-memarlıq abidələrini, orta əsrlərə aid dini-sitayiş obyektlərini, bulaq və digər təbiət abidələrini göstərmək olar. Bu sənət sahələrinin Basqalda mövcudluğu onun qədim və zəngin tarixini sübut etməklə bərabər, müasir dövrümüzdə ölkəmizin ən mühüm turuzm bölgələrindən birinə çevirilə bilməsi imkanlarından xəbər verir.

   Basqalın qədim ipəkçilik, o cümlədən kəlağayıçılıq ənənələrinin öyrənilməsi, burada və başqa ənənəvi ipəkçilik bölgələrimizdə həmin qədim və gəlirli sənət sahəsinin bərpa və inkişafına təkan verə bilər. Sözügedən sahə ilə bağlı tarixi təcrübənin öyrənilməsi və həmin təcrübənin elmi əsaslarla təqdim edilməsi ona marağın artmasına və müəyyən iş adamlarının həmin sahəyə sərmayə qoymasına gətirib çıxaracaq ki, bu da bölgədə sosial-iqtisadi problemlərin aradan qaldırılmasında, işsizlik probleminin həllində, insanların öz yurd-yuvalarına bağlanmasında fayda verə bilər.

   Nəhayət, Basqalın etnoqrafik tədqiqi digər tarixi kənd və qəsəbələrimizin də etnoqrafik baxımdan öyrənilməsi təcrübəsini artıracaq ki, bu da təbii olaraq bölgələrimizə marağın artmasına gətirib çıxaracaq.

2) Aparılmış elmi araşdırmalar, çöl materialları, mənbə və ədəbiyyat materialları üzərində iş göstərir ki, Basqal qəsəbəsi Azərbaycanda orta əsrlər şəhər mədəniyyəti və kənd məişətinin xüsusiyyətlərini özündə birləşdirən unikal yaşayış məntəqələrimizdən biridir. Bu cəhət qəsəbənin maddi-mədəniyyət nümunələrində - memarlıq abidələrində və yaşayış evlərinin nümunəsində, o cümlədən, insanların gündəlik həyat fəaliyyətində bütün aydınlığı ilə nəzərə çarpır. Burada mövcud olan və vaxtilə mövcud olmuş memarlıq abidələri - məscidlər (Hacı Bədəl məscidi, Şeyx Məhəmməd məscidi), hamam, su-kanalizasiya sistemi, yol mədəniyyəti, keçmiş Bazar meydanı və bir sıra başqa ictimai tikililər və s. deyilənləri təsdiqləyir. Xüsusilə, xalq yaşayış evləri istər memarlıq xüsusiyyətləri, istərsə də etnoqrafik baxımdan böyük maraq doğurur. Belə ki, Basqalçayın sol sahilində qərarlaşan qədim Basqal dağın döşündə amfiteatrsayağı salınmışdır. Burada evlər o qədər sıx tikilmişdir ki, uzaqdan baxanda sanki damların birləşdiyini görürsən. Şirvan ərazisi aktiv seysmik zonaya daxil olduğundan, Basqalda da inşa olunan evlərin dağıdıcı zəlzələlərə qarşı dayanıqlıqlığı nəzərə həmişə nəzərə alınmışdır. Divarların elastikliyini artırmaq üçün hər hər 5-6 daş hörgü cərgəsindən sonra divarlara dövrələmə ağac kətillər (taxta qurşaq) atılır ki, bu da mütəxəssislər tərəfindən obrazlı şəkildə “seysmik kəmər” adlandırılmışdır.

   Bundan başqa, hələ uzaq keçmişdən Basqalın bütün evləri buranın əhalisinin əsas məşğuliyyətinə - karxana toxuculuğu və kəlağayıçılıq sənətinin tələblərinə uyğunlaşdırılmışdır. Çünki XX əsrin ortalarına qədər Basqalda evlər tikilərkın, demək olar ki, hər bir evdə kəlağayıçılıq sənəti ilə məşğul olduqlarından, dəzgahların quraşdırılması, məmulatın emalı, boyadılması, qurudulması və s. üçün imkanlar nəzərə

alınmış, evlərin quruluşu, otaqlararası əlaqə, giriş və çıxışlar, eləcə də daxili səliqə-sahman düşünülmüş şəkildə həmahəng olaraq inşa edilmişdir. Bu məsələlərin elmi araşdırılması Azərbaycan maddi mədəniyyət tarixinin həm ümumi, həm də lokal cəhələrinin araşdırılmasında böyük əhəmiyyət kəsb edir.

Qədim Basqalın ərazisində XVI əsrdə inşa edilmiş məscid, qədim hamam, bazar meydanı, bulaqlar, 100-dən artıq yaşı olan mülklər və abidələr vardır. Küçələri çay daşlarından səliqə ilə döşənmiş qəsəbənin bu hissəsi ilk baxışdan orta əsr Şərq şəhərlərini xatırlatmaqla, bir muzey-şəhər təsiri bağışlayır. Basqallılar və ətraf ərazilərin sakinləri yaşayış evlərinin tikintisində, hörgü, abadlıq və quruculuq işlərində yerli inşaat materiallarından - çay daşından, kötürdaşdan və çınqıldan, o cümlədən yerli ağac materiallarından geniş istifadə etmişlər. XIX-XX əsrin əvvəllərində Basqalda ikimərtəbəli mülklər də az deyildi. Belə evlərin üst mərtəbələri adətən yaşayış, alt mərtəbələri və zirzəmi isə istehsal və təsərrüfat tikililəri üçün nəzərdə tutulurdu. Evlərin daxili tərtibatında, səliqə-sahmanında kürsü, divar boyunca düzəldilmiş taxçalar, rəflər, camaxatan və s. mühüm rol oynayırdı. Yeri gəlmişkən, belə evlərin bəziləri günümüzə qədər gəlib çatmışdır.

Basqalın Qoşabulaq, Dəmirçibazar, Qəlibgah, Dərəməhəllə, Qalabaşı, Kələkücə, Xarabiyan məhəllələri dar, enişli-yoxuşlu, əyri-üyrü küçə, dalan və döngələrdən ibarət olmaqla, orta əsr Şərq şəhəri məhəllələrinin bir çox xüsusiyyətlərini özündə qoruyub saxlayır. Burada orta əsrlərə aid kürəbənd su və kürəbənd kanalizasiya (XII-XIII əsrlər) şəbəkələri mövcuddur. “Bazar meydanı” adlanan məhəllə isə alış-veriş mərkəzi funksiyası ilə bərabər, qəsəbədaxili məsələlərin müzakirə olunduğu, ticarət sazişlərinin bağlandığı, ictimai və sosial həyatda baş verən digər məsələlərin həll edildiyi ictimai mərkəz rolunu da oynayırdı.

3) Basqal mətbəxinin zənginlikləri, müxtəlif səciyyəli yemək növləri – plovlar, pip dolması, həlimaşı, əriştə, çıl-bır, Basqal halvası və s. bölgədə çox məşhurdur. Ümumiyyətlə, Basqalda mətbəx mədəniyyətini inkişaf etdirməklə, buranın turizm imkanlarını genişləndirmək mümkün və vacibdir. Əlverişli coğrafi şərait, münasib iqlim, meşə massivləri, bulaqlar, dağlar və çaylar turistlərin istirahətinin təşkili baxımından heç bir əlavə vəsait tələb etmir. Sadəcə təbiətin bu gözəlliklərinə yüksək səviyyəli restoran-mətbəx və otel xidmətlərini əlavə etməklə yüksək nəticələr əldə etmək olar.

4) Basqalın ənənəvi geyim növləri və bəzəkləri də diqqəti cəlb edir. Məlumat üçün deyək ki, keçmişdə buranın qadın geyimləri kompleksində al yaşıl, sarı, yaşıl, göy, qırmızı və s. birrəng qanovuz parçalardan, cecimdən, gön dəridən tikilən geyimlər üstün yer tuturdu. Bas geyimləri içərisində şal, təsək, ləçək, və s. qeyd etmək olar. Lakin Basqal qadınlarının əsas baş geyimini istər keçmişdə, istərsə də indi kəlağayı təşkil etmişdir. Kişi geyimlərindən isə əsasən şal parçadan hazırlanan çuxa, arxalıq, köynək, tuman, qurşaq, müxtəlif papaqlar, gön-dəri materialından tikilən çarıq, başmaq, kəmər, başmaq, məst, çəkmə, çust və s. kimi ayaq geyimləri mühüm yer tutmuşdur. Basqalda muzey işinin təşkili baxımından bütün bu nümunələrin toplanması mühüm əhəmiyyət kəsb edir.

5) Basqalın çoxəsrlik tarixinin və mədəni irsinin mühüm bir qismini əsasən orta əsrlər dövrünə və XIX əsrə aid abidələr və memarlıq inciləri təşkil edir. Həmin abidələrdən Düzən qəbiristanlığı, Şeyx Məhəmməd məscidi, Hacı Bədəl məscidi, Seyid Ümmülbanu türbəsi, Basqal hamamı, Pirlər, 500 ildən artıq yaşı olan çinar ağacı, bulaqlar (Bədəl bulağı (XIV əsr), Qoşabulaq (XVI əsr), Xarabiyan bulağı (XVII əsr), Hacı Çələbi bulağı

(XVIII əsr), Micgohun bulağı (XIX əsr), Dambulu bulağı (XIX əsr), Hüseyn bulağı (XIX əsr), Bədo bulağı (XIX əsr), Əmrəki bulağı (XIX əsr), Çömçəbulaq (XIX əsr) və s. qeyd etmək olar. Xalqımızın ən əziz bayramı olan Novruz, Qurban və Orucluq bayramları bütün dövrlərdə qəsəbədə böyük coşqu ilə qeyd olunmuşdur.

6) Əsrlər boyu Basqal əhalisinin iqtisadi həyatının və sosial rifah halının əsas mənbəyi sənətkarlıq, xüsusilə də ipəkçilik olmuşdur. Basqalın ipək istehsalı müəssisələrində darayı, qanovuz, mov, cecim və s. arşünnüma toxumalarla yanaşı, yüksək keyfiyyətli çarşab, yorğanüzü, baş örtüyü, kəlağayı, əl dəsmalı və s. kimi ədədi toxumaların üstün yer tutmmuşdur. XIX əsrin sonu-XX əsrin əvvəllərində isə Basqal Azərbaycanda kəlağayı istehsalının iki əsas mərkəzindən biri olmuşdur. Təkcə bir faktı demək kifayətdir ki, Birinci dünya müharibəsi ərəfəsində Basqalda 1400 dəzgaha malik 900 kustar şərbafxanada il ərzində 1 milyon 800 min ədəd kəlağayı istehsal edilmiş və Basqal boyaqxanalarının bu qədər kəlağayını boyamağa gücü çatmadığından, onların xeyli hissəsi Şamaxı, Gəncə və Bakıya göndərilmişdi. basqallı Kərbəlayi Nəsir Əbdüləziz oğlu 1861-ci ildə Londonda təşkil edilmiş Ümumdünya sərgisində nümayiş etdirdiyi nəfis kəlağayı və qanovuz parçaya görə sərginin gümüş medalına və diplomuna layiq görülmüşdür. Bu isə o deməkdir ki, Basqal qeyd olunan dövrdə bu incə sənəti yaşadan, onu bədii-estetik və texniki cəhətdən inkişaf etdirən, zənginləşdirən əsas mərkəz rolunu yerinə yetirmişdir. Tədqiqatlarımızda bu məsələlər, həmçinin ipək boyaqçılığı, təbii boyaq maddələrindən istifadə qaydaları, kəlağayı boyaqçılığının özünəməxsusluqları, boyaq bitkiləri, boyaqxana ləvəzimatları və boyaqçılıqda istifadə olunan qəliblər və onların simvolikası, kəlağayıçılıqda və boyaqçılıqda mövcud olmuş adətlər, ənənələr, inanclar, yasaqlar və s. məsələlər də öz geniş təhlilini tapmışdır.

7) Apardığımız araşdırmalardan məlum olmuşdur ki, ipəkçilikdən başqa, tarixən Basqalda dulusçuluq dəmirçilik, daşişləmə, dabbaqlıq, ağacişləmə, kömürbasma və digər sənət-peşə sahələri də bu və digər dərəcədə inkişaf etmişdir. Bu sənət sahələri ipəkçilik qədər geniş yayılmasa da, basqallıların və ətraf kəndlərin əhalisinin ehtiyaclarını ödəmək gücündə olmuşdur.

8) Basqal öz abidələri, sənətkarlığı, maddi mədəniyyətin digər sahələri ilə bərabər, ailə ənənələri, ictimai məişəti, mənəvi dəyərlərə münasibəti baxımından da seçilir. Burada çoxlu sinəsi sözlə dolu ağsaqqal-ağbirçəklər olmuş, şairlər, yazıçılar, musiqi xadimləri, mədəniyyət və incəsənətin müxtəlif sahələrində çalışan saysız-hesabsız insanlar yetişmişdir. Basqal məktəbinin yetirmələrinin səsi nəinki Azərbaycanda, o cümlədən onun sərhədlərindən çox uzaqlardan gəlmişdir. Tədqiqatlarımız zamanı bu məsələlrlə bağlı geniş məlumatlar toplanmışdır.

| | |
|---|---|
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

**2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |

*(burada doldurmalı)*

Azərbaycan xalqının tarixən yaratdığı maddi və mənəvi mədəniyyət nümunələri – memarlıq abidələri, musiqisi, xalçası, ədəbiyyatı, teatrı və s.-lə haqlı olaraq fəxr edir. Təsadüfi deyil ki, həmin maddi və mənəvi dəyərlərin bir çoxu UNESKO-nun maddi və qeyri-maddi mənədəni irs siyahısına daxil edilmişdir ki, onlardan biri də bu gün Basqalda yenidən dirçəldilən kəlağayı sənətkarlığıdır.

Bundan başqa, Azərbaycan ərazisi həm də dünya şəhər mədəniyyətinin yaranıb formalaşdığı və yayıldığı məkanlardan sayılır. Bakı, Naxçıvan, Gəncə, Beyləqan, Şamaxı və başqa şəhərlərimizlə yanaşı, elə yaşayış məntəqələrimiz – kənd və qəsəbələrimiz var ki, onlar da opta əsr şəhər mədəniyyəti elementlərini bu günə qədər yaşatmaqdadırlar. Özünün orijinallığı və identikliyi ilə seçilən bu kənd və qəsəbələr zaman-zaman baş vermiş təbii-coğrafi, sosial-iqtisadi və siyasi proseslərin hər cür təsirlərinə rəğmən spesifik elementlərini, tarixi küçə və məhəllə strukturlarını, klassik ev nümunələrini, məscidləri, ibadətgahları və s. qoruyub saxlamış, xalqımızın ənənəvi təsərrüfat və mədəni-məişət xüsusiyyətlərini günümüzə gətirib çıxara bilmişlər. Onlardan biri də tədqiqat obyektimiz olan, özünəməxsusluğu və təbii gözəllikləri ilə seçilən Basqal qəsəbəsidır. 1932-1933-cü illərdə indiki İsmayıllı rayonunun mərkəzi olmuş Basqal öz unikal təbii-coğrafi mövqeyi, abidələri, sənətkarlıq ənənələri, əhalisinin keçmişə, milli yaddaşa və milli-mənəvi dəyərlərə bağlılığı, bütün bunlarla yanaşı həm də, müasirliyi ilə sözün tam mənasında açıq səma altında etnoqrafik muzeydir.

Əslində Basqalın tarixən kənd, qəsəbə və ya şəhər olması ilə bağlı vahid fikir yoxdur və bu barədə elmi mübahisələr hələ də davam edir. Alimlər məsələ ilə bağlı konkret bir fikir söyləməkdən çəkinirlər. Amma Basqalda canlı olaraq gördüklərimiz, o cümlədən bizə gəlib çatan bəzi tarixi məlumatlar vaxtilə buranın şəhər, ən azından isə şəhər tipli yaşayış məntəqəsi olduğuna dəlalət edir. Bundan başqa, bəzi yazılı mənbələrdə də Basqalın adı məhz şəhər olaraq qeyd olunur.

Fikrimizcə, bu məsələ ətrafında düşünməyə dəyər. Əvvəla, ona görə ki, orta əsrlərdən başlayaraq tarixi ədəbiyyatda adı çəkilən Basqal ərazisinə və əhalisinin sayına görə, Azərbaycanın iri yaşayış məntəqələrindən biri olmuşdur. İkincisi, məntəqə orta əsr şəhərlərinin strukturuna uyğun olan bir sıra parametrlərə malikdir. İlk növbədə Basqal bir zamanlar qala divarları ilə əhatə olunubmuş ki, bu fakt da hal-hazırda Qalabaşı məhəlləsindəki qalınlığı bir neçə metrə çatan qala divarlarının qalıqları ilə sübut olunur. Lakin həmin qala divarlarının hansı dövrə aid olması dəqiq müəyyənləşdirilməmişdir. Bəzi tədqiqatçılar onu XIV əsrə aid etsələr də, ortada konkret bir sübut yoxdur. Yəni, qala divarlarının tarixinin daha qədim dövrə aid olması istisna deyildir. Və təbiidir ki, ərazidə arxeoloji qazıntılar aparılmadan bu barədə son və qəti söz demək çətindir. Üçüncüsü, Basqalın memarlıq quruluşu – daş döşənmiş küçə və meydanları, cərgə ilə düzülmüş emalatxana və dükanları, çox mükəmməl su və kanalizasiya şəbəkəsi onun şəhər mədəniyyəti elementləri ilə zənginliyini və bəlkə də orta əsr şəhərlərindən biri olduğunu təsdiqləyən çox ciddi arqumentlərdir. Dördüncüsü və bəlkə də ən başlıcası Basqal orta əsr şəhərləri kimi, yüzilliklər boyu mühüm səntkarlıq mərkəzi, Qafqazda ipək istehsalı və ticarətinin cəm olduğu çox mühüm yaşayış məntəqələrindən biri olmuşdur. Basqal ustalarının istehsal

etdikləri ipək məmulatı (kəlağayı, qanovuz, mov, darayı, yorğanüzü və s.) Azərbaycanın sərhədlərini aşaraq Şərqdə Hindistana, Qərbdə isə Faransaya qədər gedib çıxmışdır. Basqal sənətkarları xam ipəyi əsasən Şəki, Qaraməryəm, Bığır, Vəndam, Qəbələ, İsmayıllı, Ordubad, Kutaisi və Səmərqənddən alırdılar ki, bu da öz növbəsində Basqalın dünyanın müxtəlif ölkələri və şəhərləri ilə geniş iqtisadi və ticarət əlaqələrindən xəbər verir. Bundan başqa basqallılar bir çox ölkələrdə və şəhərlərdə bu qədim xalq sənətini təbliğ və inkişaf etdirmiş, icma şəklində yaşayaraq öz doğma yurdlarının adını da yaşatmağa çalışmışlar. Bundan əlavə, Basqalda və ətraf kəndlərdə toplanmışı çöl-etnoqrafik materiallarını elmi dövriyyəyə daxil etməklə ipək məmulatı istehsalının, xüsusilə də kəlağayıçılığın tarixi, inkişafı, kəlağayı sənətinin texnoloji əsasları, kəlağayıçılıq ənənələri və bu qədim sənətin indiki vəziyyəti barədə dolğun təsəvvür yaranır. Bütün bunlar da nəticə etibarilə Basqalda ipək istehsalı tarixinin etnoqrafik aspektlərini yüksək elmi-nəzəri səviyyədə həll etməyə imkan verir.

Tədqiqatlar zamanı kəlağayıçılıqdan başqa, bir zamanlar Basqalda geniş intişar tapmış qanovuz, mov, yorğanüzü, darayı və digər növlərdən olan ipək parça istehsalından və ticarətindən də bəhs edilir, yeri gəldikcə bu sənət sahələrinin tanınmış nümayəndələri barədə də geniş məlumatlar əldə edilmişdir. Basqalın məşhur Bazar meydanındakı ticarət cərgələrində qəsəbə sakinlərinin dəmirçilik, dulusçuluq və başqa sənətkərlaıq məhsulları satılan dükanlarının fəaliyyət göstərməsi, ətraf rayon sakinlərinin də bura alış-verişə gəlməsi, qəsəbədə daşişləmə, ağacişləmə, kömürbasma və s. sənət-peşə sahələrinin mövcud olması haqda məlumatlar da elmi əhəmiyyəti baxımından diqqəti cəlb edir.

Basqalda dövlətin mühafizəsində olan 20-dən artıq tarixi-arxeoloji və mədəniyyət abidəsi qeydə alınmışdır. Elə buna görə də, qəsəbə hələ sovet dönəmində - 28 iyul 1989-cu il tarixdə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə “Dövlət Tarix və Mədəniyyət Qoruğu” elan olunmuşdur. Basqalın olduqca əlverişli strateji mövqedə - tarixi Şamaxı-Qəbələ tranzit yolu üzərində yeləşməsi, ətraf ərazinin qədim tarixə malik arxeoloji abidələrlə (Kürdüvan, Uzunboylar, Nüydü, Lahıc, Qırlartəpə və s.) zənginliyi, ona bitişik ərazidə Xankəndi, Fit və Niyal abidələrinin mövcudluğu özü-özlüyündə buranın bir yaşayış məntəqəsi olmaq etibarilə qədimliyi barədə düşünməyə məntiqi əsas verir.

Lakin Basqalı şəhər kimi təqdim edən təkcə onun memarlıq quruluşu, sənətkarlığı və maddi mədəniyyət elementləri deyildir. Müəlliflərin də qeyd etdiyi kimi, Basqal öz maarifçilik ənənələri, yetişdirdiyi dəyərli ziyalıları və şəxsiyyətləri ilə də haqlı olaraq öyünür. Burada başqa yerlərdən fərqli olaraq, hər zaman uşaqların maariflənməsinə, elm və təhsil almasına böyük önəm vermişlər. Bu məsələdə basqallı qadınlar da fəal mübarizə aparmışlar. Onlar bu sahədə görülən işlərin ən fəallarından və öncüllərindən idilər. Bəlkə də buna görə XX əsin əvvəllərində Basqalda təhsillilərin sayı Şamaxıdakından çox olmuşdur. Təkcə onu yada salaq ki, 1887-ci ilin 25 avqustunda Basqalda müəllim kadrları hazırlayan məktəb kimi fəaliyyətə başlayan indiki Basqal məktəbinin sinif otaqlarından yüzlərlə elm, mədəniyyət və dövlət xadimləri çıxmışdır. Vaxtilə bu məktəbdə Məmmədəli Nəsibzadə, Şamaxıdakı “Üsuli-cədid” məktəbinin yetirməsi olan Xaliq Fətəlizadə kimi tanınmış müəllimlər dərs demişlər. Ümumiyyətlə, Basqal məktəbi yarandığı gündən ölkəmizin ən qabaqcıl təhsil ocaqlarından olmuş və bu ocaq təkcə Basqalın deyil, bütövlükdə Azərbaycanın, keçmişdə isə SSRİ-nin ictimai-mədəni həyatında mühüm rol oynamış böyük şəxsiyyətlər yetirmişdir.

Beləliklə, bütün bu deyilənlər düşünməyə əsas verir ki, müəyyən infrastruktur layihələri həyata keçirməklə, Basqalın yaxın perspektivdə daha geniş miqyasda tanınmasına, onun sosial-iqtisadi və mədəni tərəqqisinə nail olmaq mümkündür. Bu baxımdan isə ilk növbədə, Basqalın

arxeoloji tədqiqi qəsəbə ərazisinin arxeoloji araşdırılması vacibdir ki, həmin nəticələr də gələcəkdə qəsəbənin və regionun deyill, bütövlikdə Azərbaycan tarixi üçün əhəmiyyətli olan yeni materiallar verə bilər.

Əsərdə Basqalın turizmin inkişafı baxımından olduqca əlverişli imkanlara malik olduğu vurğulanır və gösərilir ki, bu işin həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın ruhuna və tələblərinə tam uyğundur. Həmin Proqramda əksini tapmış bir çox müddəlar Basqalın təbii və sosial-iqtisadi imkanlarına tam şəkildə cavab verir. Yəni, burada qədim sənətkarlıq sahələrini, xüsusilə ipəkçiliyi və kəlağayıçılığı bərpa və inkişaf etdirməklə, beynəlxalq tələblərə cavab verən turizm infrastrukturu yaratmaqla, tarixi abidələri bərpa və konservasiya etmək, muzey işini təkmilləşdirmək, otel-iaşə xidmətini yüksək səviyyədə təşkil etməklə bölgəyə geniş turizm axınına nail olmaq mümkündür ki, bu da nəticədə yeni iş yerlərinin açılmasına, əhalinin maddi durumunun yaxşılaşmasına, bununla da sosial-iqtisadi tərəqqiyə gətirib çıxaracaqdır. Bu sahədə təcrübəli və ixtisaslı kadrların olduğu, Basqal mətbəxinin zənginlikləri, ərazinin təbii-coğrafi rəngarəngllikləri və s. mütləq şəkildə nəzərə alınmalıdır.

Ümumiyyətlə, hesab edirik ki, 18 ay ərzində basqalda apardığımız tədqiqatlar və bu tədqiqatlardan ortaya çıxan müvafiq elmi nəticələr tarixi etnoqrafiyada azərbaycanlıların orta əsrlər və yeni dövr mədəniyyəti (ənənəvi evlər, yemək və içkilər, geyimlər və bəzəklər, sənətkarlıq məhsulları) ilə bağlı digər məsələlərin də daha geniş spektrdə araşdırılmasına, bu cür tədqiqatların digər tarixi kəndlərimiz və qəsəbələrimizlə bağlı da həyata keçirilməsini gündəmə gətirir.

| | |
|---|---|
| **SİFARİŞÇİ:** | **İCRAÇI:** |
| **Elmin İnkişafı Fondu** | |
| **Müşavir** | **Layihə rəhbəri** |
| Babayeva Ədilə Əli qızı | Babayev Tofiq Ağababa oğlu |
| ________________ *(imza)* | ________________ *(imza)* |
| "05" 09 201_-cü il | "__" ________ 201_-cü il |

**Baş məsləhətçi**

Qurbanova Səmirə Yaşar qızı

________________

*(imza)*

"05" 09 201_-cü il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Basqal (tarixi -etnoqrafik tədqiqat)**
Qrantın məbləği: **35 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Babayev Tofiq Ağababa oğlu**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/38/5-M-08**
Müqavilənin imzalanma tarixi: **19 yanvar 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 fevral 2015-ci il – 01 avqust 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar<br>həmçinin, xaricdə çap olunmuş | | "Basqal (tarixi-etnoqrafik tədqiqat) | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2. | Məqalələr<br><br><br>həmçinin xarici nəşrlərdə | 1. Basqalda ənənəvi ipəkçiliyin bəzi məsələlərinə dair //Azərbaycan MEA-nın xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 2015, №2. s. 157-170<br>2. Basqalda bəzi ənənəvi sənətkarlıq sahələri haqqında //Azərbaycan MEA-nın xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 2015, № 3. s. 160-169<br>3. Kəlağayı sənətkarlığının tarixi və etnoqrafik xüsusiyyətləri haqqında (Basqal materialları əsasında) //Tarix və onun problemləri. № 1, Bakı, 2016. S. 249-257<br>4.Basqal: arxeoloji və tarixi-etnoqrafik xarakteristika //Sivilizasiya (elmi-nəzəri jurnal). № 1. 2016. s. 158-166<br>5. Basqal: tarix, mədəniyyət və müasirlik //Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). № 2 (98), 2016. s. 301-309 | | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| 3. | Konfrans materiallarında məqalələr | | | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

**2. İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

**3. Elmi tədbirlərdə məruzələr (sayı)**

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*

**İCRAÇI:**

**Layihə rəhbəri**
Babayev Tofiq Ağababa oğlu

____________________
*(imza)*
" __ " _________ 201_-cü il

"05" 09 201_-cü il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

______________
(imza)
"05" 09 201_-cü il